**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ ŞAGİRD NAİLİYYƏTLƏRİNİN SUMMATİV QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ İŞİN ELMİ-PEDAQOJİ ƏSASLARI

İxtisas: 5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Arzu Nemət qızı Baxşəliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2025**

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: pedaqogika üzrə fəlsəfə doktoru, dosent
**İlham Ağaqardaş oğlu Cavadov**

Rəsmi opponentlər: pedaqogika elmləri doktoru, professor
**Rüfət Lətif oğlu Hüseynzadə**

pedaqogika üzrə fəlsəfə doktoru
**Sevinc Tofiq qızı Vəliyeva**

pedaqogika üzrə fəlsəfə doktoru
**Rəsul Sabir oğlu Əliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Xəzər Universiteti nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: fizika-riyaziyyat elmləri doktoru, professor
____________ **Hamlet Abdulla oğlu İsayev**

Dissertasiya şurasının elmi katibi: pedaqogika elmləri doktoru, professor
____________ **Akif Nurağa oğlu Abbasov**

Elmi seminarın sədri: pedaqogika elmləri doktoru, professor
____________ **Vidadi Cəmil oğlu Xəlilov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ulu Öndər Heydər Əliyevin 1999-cu ildə təsdiq etdiyi "Təhsil sahəsində İslahat proqramı"nın məntiqi nəticəsi olaraq 2008-ci ildən başlayaraq ümumtəhsil məktəblərinin I siniflərində yeni təhsil proqramları (kurikulumları) tətbiq olunmağa başladı. Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsinin yeni mexanizmlə aparılmasını zəruri etdi. Bu zərurət nəticəsində Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli, 09 nömrəli qərarı ilə "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" sənədi təsdiq olundu. Konsepsiyada müasir qiymətləndirmə fəaliyyətində şagirdlərin nəinki idrak (əqli) fəaliyyətinin, eyni zamanda onların mənimsədiyi biliyin keyfiyyət göstəricilərinin və istifadə səviyyəsinin nəzərə alınması xüsusi qeyd edilmişdir.

Konsepsiyada yekun qiymətləndirmə standartların mənimsənilməsi yönümündə təhsilalanların nail olduğu irəliləyişləri dəyərləndirmək üçün əsas vasitə olduğu göstərilir. Eyni zamanda bu tarixi sənəddə summativ qiymətləndirmənin bir cəhəti də xüsusi olaraq vurğulanır. Bildirilir ki, summativ qiymətləndirmənin əsas cəhəti təhsilalanların öyrəndiklərinin tətbiqetmə qabiliyyətinə nə dərəcədə yiyələndiklərini aşkara çıxarmaqdır.

Konsepsiyanın əməli olaraq tətbiqinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi "Ümumtəhsil məktəblərində məktəbdaxili qiymətləndirmənin aparılması Qaydaları"nı hazırladı. Sənədlərin hər ikisində də təhsilalanların nailiyyətlərinin diaqnostik, formativ və summativ olmaqla hər üç məktəbdaxili qiymətləndirmələrdən istifadə edilməsi qərarlaşdırılmışdır.

Şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi təlim fəaliyyətinin bu və ya digər mərhələsində məktəblilərin təlim nəticələrinin dövlət təhsil standartlarının və proqramların qarşıya qoyduğu tələblərə uyğunluğunun üzə çıxarılması və müqayisəsi kimi başa düşülür. Nəticə etibarı ilə summativ qiymətləndirmə, şagirdin təlim nailiyyətlərinin səviyyəsinin, biliklərinin keyfiyyətinin normativlərə uyğunluğunun ölçülməsidir.

Summativ qiymətləndirmənin nəticəsi təhlil olunur, şagirdin mövcud biliyi, göstərdiyi bacarıq və vərdişlər qiymətləndirilir.

Müəllim şagirdin bilik səviyyəsinə uyğun olaraq öz təlim fəaliyyətinin gələcək mərhələlərində müvafiq düzəlişlər edir. Ənənəvi məktəb təcrübəsində şagird nailiyyətlərinin qiymətləndirilməsinin obyektivliyinə yalnız bu mövqeydən baxılır.

Şagird nailiyyətlərinin summativ qiymətləndirilməsində məqsəd yalnız təhsilalanların bilik səviyyəsini ölçmək deyil, eyni zamanda təlimdə geriqalmaların səbəblərinin aydınlaşdırmaq, onun əsasında məktəblilərin gələcək təlim fəaliyyətlərini proqnozlaşdırmaqdan ibarətdir.

Summativ qiymətləndirmə prosesinin müxtəlif iştirakçılarını fərqli məlumatlar maraqlandırır. Bu, summativ qiymətləndirmənin nəticələrindən hansı məqsədlər üçün istifadə olunacağından ibarətdir. Məsələn, şagirdlər öz nəticələrini digər sinif yoldaşları ilə müqayisə etmək, həmçinin bilik və bacarığındakı çatışmazlıqları aşkar etmək üçün öyrənirlər. Məzunlar gələcək təhsil yollarını müəyyənləşdirmək üçün digər yoldaşları ilə müqayisədə öz nailiyyətlərini qiymətləndirirlər. Müəllimlər bu məlumatlardan dərs dediyi sinifdəki şagirdlərin inkişafındakı boşluqların nizama salınmasında istifadə edirlər. Summativ qiymətləndirmənin nəticələrinə əsasən müəllim və məktəb rəhbərliyi təlim prosesində şagirdlərə fərdi yanaşmanın təmin olunmasına, hansı şagirdə tədris materiallarının təkrar aydınlaşdırılmasına ehtiyacın yarandığını üzə çıxarır.

Məktəb səviyyəsində analoji məlumatlar təlimin keyfiyyətinin yüksəldilməsi üçün məqsədyönlü işin layihələndirilməsinə imkan verir. Çətin mənimsənilən məzmunun aydınlaşdırılaraq, onların müvəffəqiyyətlə həll olunması üçün fənn metodbirləşmələrinin fəaliyyətinin planlaşdırılması vacibdir.

Müasir dövrdə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi nəzəri və pedaqoji praktikanın aktual problemlərindən biridir. Cəmiyyətin ayrı-ayrı inkişaf mərhələlərində təlimin keyfiyyətinin və fəaliyyətin nəticələrinin ölçülməsi, eyni zamanda ölçmələrin nəticələrinin təhlili hər zaman pedaqoq alimlərin və metodistlərin əsas maraq nöqtəsində dururdu. Əgər problemin nəzəri tərəfi daha çox bu sahənin tədqiqatçılarını diqqətini çəkirdisə, ümumtəhsil məktəblərində təlimin keyfiyyət səviyyəsi və şagird nailiyyətlərinin qiymətləndirilmə mexanizminin əlçatanlığı təhsili idarəedənlərin və təhsilverənlərin narahatlığına səbəb olurdu.

Odur ki, müasir tələblərin prizmasından ümumtəhsil məktəblərinin qarşısındakı mühüm məqsədlərin uğurla həyata keçirilməsi üçün şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi sahəsində yeni hüquqi normativ bazanın yaradılmasını, bu sahədə məktəb rəhbərlərinin və müəllimlərin peşəkarlıq səviyyəsinin və pedaqoji ustalığının artırılmasına xidmət edən təlim kurslarının təşkil edilməsini, metodik tövsiyələrin hazırlanmasını və başqa vacib məsələlərin uğurlu həllini tələbata çevirir. Belə yanaşmalarda ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin dəqiq və obyektiv ölçülməsi, tam olaraq məktəbin fəaliyyətinin qiymətləndirilməsi məqsədi ilə yeni, etibarlı və elmi cəhətdən əsaslandırılmış qiymətlən- dirmə mexanizmlərinin hazırlanması zərurəti günün tələbi olaraq meydana çıxır. Bu məqsədlə hər şeydən əvvəl şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi sahəsində mövcud olan elmi və nəzəri yanaşmaların öyrənilməsi, summativ qiymətləndirmənin mahiyyəti, məzmunu, məqsəd və vəzifələri sistemli araşdırılıb, imkanlarının üzə çıxarılması və həmin imkanlardan səmərəli istifadənin yollarının müəyyənləşdirilməsi xüsusi əhəmiyyət daşıyır.

Nəzəri-pedaqoji və metodik ədəbiyyatın təhlilindən görünür ki, Azərbaycanda və xarici təcrübədə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinə dair sistemli tədqiqat aparılmamışdır. Ümumtəhsil məktəblərində şagirdlərin təlim nailiyyətinin summativ qiymətləndirilməsi məsələsinə məqsədyönlü, sistemli və elmi-pedaqoji baxımdan əsaslandırılmış yanaşmalardan istifadə etmədən, məktəblərdə təlim-tərbiyənin keyfiyyət səviyyəsi barədə səhih məlumata yiyələnmək qeyri-mümükündür.

Son illərdə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsinə dair A.O. Mehrabov, Y.Ş. Kərimov, Ə.Ə. Ağayev, A.N. Abbasov, F.B. Sadıqov, Ə.M. Abbasov, E.B. Bəylərov, P.B. Əliyev, İ.A. Cavadov və başqaları tərəfindən aparılmış tədqiqatlar və onların nəticələrindən alınmış dəyərli təkliflər və mülahizələr irəli sürülmüş, tədqiqatların nəticələri dövrü pedaqoji mətbuatda nəşr edilmiş, lakin alınmış nəticələrin tətbiqi təmin edilməmişdir.

Şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi problemləri ilə bağlı ABŞ tədqiqatçılarından C.Garrison, M.Ehringhaus,

S.Chappuis, J.Chappuis, N.Glazer, C.Moss, Böyük Britaniyanın təhsil mütəxəssislərindən P.Black, D.Wiliam, Türkiyənin pedaqoq alimlərindən H.Tekin, D.Özçelik və başqaları emprik tədqiqatlar aparmış və problem haqqında dəyərli fikirlər söyləmişlər.

Rusiya Federasiyasının pedaqoq və psixoloq alimləri Ş.A.Amonaşvili, V.M.Polonski, N.V.Seleznev, Q.Y.Ksenzova, N.N.Dikanskaya, E.V.Qerasimenko, Q.Ç.Taxtamışeva və başqaları şagird nailiyyətlərinin məktəbdaxili qiymətləndirilməsi ilə bağlı tədqiqatlar aparmış və maraqlı nəticələr əldə etmiş, öz tədqiqatlarında müəllimlərin qiymətləndirmə fəaliyyətinin daha səmərəli təşkil olunması üçün müvafiq təklif və tövsiyələr vermişlər.

Lakin aparılan yerli və xarici təcrübənin araşdırılması nəticəsində aydın oldu ki, ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi bilavasitə nə yerli, nə də xarici tədqiqatçılar tərəfindən ətraflı tədqiq olunmamışdır.

Təhsil müəssisələrində keyfiyyətin artırılması, şagirdlərin təlim nailiyyətlərinin summativ qiymətləndirilməsi sahəsində yaranmış problemlərin pedaqoji və psixoloji, o cümlədən elmi və metodik əsaslarının hazırlanması tədqiqatın aktuallığını bir daha müəyyən edən mühüm göstəricilərdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi prosesidir.

Tədqiqatın predmeti. Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi üzrə işin elmi pedaqoji əsaslarıdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi üzrə işin elmi-pedaqoji əsaslarını müəyyənləşdirməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı **vəzifələr** irəli sürülmüşdür:

- summativ qiymətləndirmənin mahiyyəti və məzmununun müəyyənləşdirilməsi;
- problem baxımdan elmi-pedaqoji ədəbiyyatın təhlil olunması;

- xarici ölkələrin təcrübəsində şagird nailiyyətlərinin qiymətləndirilməsi modellərinin inkişaf tarixinin araşdırılması;

- ümumtəhsil məktəblərində şagirdlərin təlim nailiyyətlərinin summativ qiymətləndirilməsi təcrübəsinin öyrənilməsi;

- ümumtəhsil məktəblərində summativ qiymətləndirmənin təşkili metodikasının hazırlanması;

- summativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələrin müəyyənləşdirilməsi;

- summativ qiymətləndirmə vasitələrinin hazırlanmasına verilən didaktik tələblərin müəyyənləşdirilməsi;

- pedaqoji eksperimentin təşkili, aparılması və nəticələrin təhlil olunması.

**Tədqiqat metodları.** Tədqiqat prosesində aşağıdakı metodlardan istifadə edilmişdir:

- Nəzəri təhlil, məktəb sənədlərinin təhlili, qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi, pedaqoji müşahidə, müsahibə, sorğu, pedaqoji eksperiment.

- Məktəb sənədlərinin təhlili. Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsinə dair sənədlər, o cümlədən pedaqoji şuranın protokolları, şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi üçün məktəblərdə istifadə olunan mütərəqqi yanaşmalar öyrənilmiş və onların təhlili aparılmışdır.

- Qabaqcıl təcrübənin öyrənilməsi və ümumiləşdirilməsi. Məktəb rəhbərlərinin, ayrı-ayrı müəllimlərin iş təcrübəsi araşdırılmış şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin səmərəli yolları öyrənilmişdir.

- Pedaqoji müşahidə. Şagird nailiyyətlərinin summativ qiymtləndirilməsinə dair məktəblərin fəaliyyəti müşahidə edilmiş, toplanmış materiallar təhlil olunmuş, qruplaşdırılmış və ümumiləşdirilərək dissertasiyanın ayrı-ayrı paraqraflarda əks etdirilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Məqsədlərə uyğun müəyyən edilmiş üsul və vasitələr summativ qiymətləndirmədən istifadənin səmərəliliyini artırır.

2. Didaktik tələblər əsasında hazırlanmış summativ qiymətləndirmə vasitələri onların istifadə imkanlarını genişləndirir və təlim prosesinə müsbət təsir göstərir.

3. Müəllimin peşəkarlıq səviyyəsi və pedaqoji fəaliyyət sahəsindəki təcrübəsi ümumtəhsil məktəblərində şagirdlərin təlim nailiyyətlərinin effektiv qiymətləndirilməsi vasitələrindən biri kimi çıxış edir.

**Tədqiqatın elmi yeniliyi.** Ümumtəhsil müəssisələrində təhsilin məzmununun tərkib hissəsi kimi şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin mahiyyəti elmi-pedaqoji cəhətdən əsaslandırılmış, onun təhsilin keyfiyyətinin artırılmasındakı rolu araşdırılmış, şagirdlərin təlim nailiyyətlərinin summativ qiymətləndirilməsinin üsul və vasitələri, onların hazırlanmasına verilən didaktik tələblər sistemi müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqatın nəzəri əhəmiyyəti tədqiqatın nəticələrinə əsasən təlim nəzəriyyəsinə töhfə verilmiş, onun şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı müddəaları inkişaf etdirilmişdir. Həmçinin bu araşdırmanın aparılması zamanı xüsusi metodikaların şagird nailiyyətlərinin qiymətləndirilməsi istiqamətində rolu və əhəmiyyəti nəzərə alınmışdır.

Tədqiqatın praktik əhəmiyyəti Azərbaycan Respublikasında ilk dəfə ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi problemi üzrə mövcud təcrübənin öyrənilməsi, ümumiləşdirilməsi və elmi-pedaqoji təhlilin aparılması nəticəsində təhsil işçilərinin maarifləndirilməsi üçün elmi-pedaqoji və metodik baxımdan əsaslandırılmış yeni yanaşmalar hazırlanmışdır.

Bu isə onu göstərir ki, tədqiqatın nəticələrindən aşağıdakı istiqamətlərdə istifadə oluna bilər:

- təlim prosesi ilə məşğul olan müəllimlərin təcrübəsində;
- “Pedaqogika” və “Didaktika” kursları üzrə fənlərin yeni məzmununun yaradılmasında;
- ümumtəhsil fənləri üzrə xüsusi metodikalara dair kursların məzmununun yeniləşdirilməsində;
- müəllim inkişafına xidmət edən təlim kurslarının məzmununun hazırlanmasında;
- magistratura səviyyəsində qiymətləndirmə ilə bağlı kursların məzmununun hazırlanmasında;
- təhsil menecerləri hazırlayan təlim kurslarının məzmununda.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada öz əksini tapan şagirdlərin təlim nailiyyətlərinin summativ qiymətləndirilməsi üzrə yanaşmalar Bakı və Şirvan şəhər, Ağdam və Hacıqabul rayon ümumtəhsil məktəblərində tətbiq edilmiş və müsbət nəticələr əldə olunmuşdur.

Tədqiqatların nəticələri Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi, Təhsilin iqtisadiyyatı və idarəolunması şöbələrinin seminarlarında, pedaqoji eksperimentlərin aparıldığı məktəblərin pedaqoji və metodik şuralarının iclaslarında, doktorantların və gənc tədqiqatçıların konfranslarında müzakirə edilmişdir. Dissertasiyadakı əsas müddəalar, nəticələr və təkliflər Təhsil İnstitutunun təhsilin keyfiyyəti şöbəsinin cari və yekun hesabatlarında öz əksini tapmış və respublikanın aparıcı elmi jurnallarında 6 məqalə (o cümlədən 1 məqalə xaricdə) şəklində çap olunmuşdur. Bundan başqa, 6 konfrans materialının (o cümlədən biri xaricdə) nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsilin nəzəriyyəsi və tarixi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən, on paraqrafı özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Dissertasiyanın giriş hissəsi – 9 səhifə, 15441 işarə, I fəsli – 66 səhifə, 117585 işarə, II fəsli – 37 səhifə, 63581 işarə, nəticə – 8 səhifə, 15616 işarə, dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla, 212223 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsədi və vəzifələri, obyekti, predmeti, metodoloji və metodik əsasları, elmi yeniliyi, elmi-nəzəri və praktik əhəmiyyəti şərh olunur, müdafiəyə çıxarılan əsas müddəalar müəyyən edilir.

Dissertasiyanın I fəsli **"Tədqiqatın ümumi nəzəri problemləri"** adlanır və özündə dörd paraqrafı birləşdirir. I fəslin birinci paraqrafı ***"Summativ qiymətləndirmənin mahiyyəti və məqsədi"*** adlanır.

Şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsində obyektivliyin təmin olunması üçün müəllimlərə hansı metodik köməyin

göstərilməsi metodistləri narahat etmiş və bu gün də etməkdədir. Çünki cəmiyyətdə gedən sosial-iqtisadi dəyişikliklər məktəbin qarşısında yeni tələblər qoyur. Onun işinin günün tələbləri baxımından daim təkmilləşdirilməsini, yenilənməsini qaçılmaz edir. Müasir təhsil fəlsəfəsinə görə şagird təlim-tərbiyə prosesinin subyektidir, o, pedaqoji prosesin mərkəzində durur. Müasir dövrdə təhsilin əsas məqsədi şagirdlərin məntiqi, tənqidi və yaradıcı təfəkkürünü inkişaf etdirmək, onlarda tədqiqatçılıq bacarığı formalaşdırmaqdan ibarətdir.

Tədqiqatlar göstərir ki, şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin nəticələrindən istifadə edən müəllimlər şagirdlərin təlim prosesində hansı biliklərə necə və hansı səviyyədə yiyələnməsi ilə bağlı aydın təsəvvürə malik olur, şagirdlərin tələblərini necə qarşılamaq və növbəti hədəflərə doğru irəliləməyə davam etmək üçün təlim prosesini necə təşkil etməyi bilirlər. Çünki şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi, təlim prosesini yenidən formalaşdırmaq deyil, müəllimi və şagirdləri öz təlim fəaliyyətlərinin nəticəsi ilə bağlı məlumatla təmin etmək üçün bir vasitədir. Summativ qiymətləndirmənin nəticələrindən məktəbdə təhsilin keyfiyyət səviyyəsinin və ya şagirdlərin biliyinin inkişafını müəyyən etmək və gələcək addımları atmaq üçün istifadə edilə bilər. Digər tərəfdən, summativ qiymətləndirmə biliyin inkişafının göstəricisidir. Yəni şagird nailiyyətlərinin qiymətləndirilməsi əldə olunan məlumatlar əsasında təlim prosesinin güclü və zəif tərəfləri müəyyənləşdirilməli, bu cəhətləri dəstəkləmək üçün zəruri inzibati, pedaqoji və metodik tədbirlər görülməlidir. Bu məlumatlar əsasında məktəbdə şagird, müəllim və məktəb rəhbərlərinin fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edən müvafiq qərarlar qəbul edilir.

I fəslin ikinci paraqrafı ***"Elmi-pedaqoji ədəbiyyatda problemin qoyuluşu"*** adlanır. Adından da göründüyü kimi paraqrafda problem elmi-pedaqoji ədəbiyyat aspektində araşdırılmışdır.

Qiymətləndirilmə problemi heç də sadə və asan bir proses deyildir. Bunun üçün ən əvvəl istiqamət olaraq Azərbaycanın pedaqoq və psixoloqlarının da irəli sürdüyü fikirləri nəzərdən keçirmək, onların tövsiyələrinə dönə-dönə müraciət etməyimiz lazım gəlir. Azərbaycan pedaqogika elmində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi probleminin hansı bir prinsip və metodlarla reallaşdırılması, onun vəzifə və funksiyaları barədə pedaqoji və psixoloji baxımdan

əsaslandırılmış rəy və fikirlər söylənilməmişdir.

Akademik M.M. Mehdizadə öz tədqiqatlarında şagirdlərin bilik, bacarıq və vərdişlərin səviyyəsinin qiymətləndirilməsinin təlim prosesində özünəməxsus yeri olduğunu qeyd edir. Alimin qənaətlərinə görə, təlim prosesinin keyfiyyətini hesaba almadan, şagirdlərin təlim materiallarını necə mənimsədiklərini bilmədən pedaqoji prosesi səmərəli təşkil və idarə etmək olmaz. M.M. Mehdizadənin fikrincə, "*Təlim prosesinin keyfiyyətini yoxlama, öz- özünə məqsəd deyil, onu yaxşılaşdırmaq, geriyə qalan şagirdləri üzə çıxarıb onlara əməli yardım göstərmək məqsədi güdür*".

Prof. Y.R. Talıbov, Ə.Ə. Ağayev, A.İ. Eminov və İ.N. İsayev tərəfindən hazırlanmış "Pedaqogika" adlı dərs vəsaitində şagird müvəffəqiyyətinin qiymətləndirilməsindən müəllimlərin ustalıqla istifadə etməli olduqları bildirilir. Müəllimlərin bu incə pedaqoji alətdən qorxu və cəza aləti kimi istifadə etməməli olduqları xüsusi qeyd edirlər.

Müəlliflərə görə, "*Şagirdlərin təlim müvəffəqiyyəti qiymətləndirilərkən onların qabiliyyətləri, məntiqi təfəkkür xüsusiyyətləri, fikri fəallıq priyomlarından istifadə etmək bacarıqları nəzərə alınmalıdır*".

Buradan da göründüyü kimi, müəllim şagird nailiyyətlərini qiymətləndirərkən şagirdin mənimsənilmiş materialı necə yadda saxladığını yox, onun təfəkkürünü, yəni öyrəndiyi materialdan necə istifadə etmə bacarığını nəzərdə saxlaması prioritet təşkil etməlidir.

Summativ qiymətləndirmə təhsil prosesinin nəzərdə tutulan mərhələlərinin sonunda təhsilalanların akademik nəticələrinin qiymətləndirilməsini nəzərdə tutur. Belə qiymətləndirmənin aparılmasında əsas məqsəd təhsilalanların nailiyyətlərinin tətbiq edilmiş kurikulumun tələblərinə uyğun olduğunu öyrənməkdir. Apardığımız araşdırmalar nəticəsində məhz belə bir qənaətə gəlirik ki, ümumtəhsil müəssisələrində yekdil olaraq şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin planlaşdırılmış şəkildə reallaşdırılması məqsədi ilə qiymətləndirmə vasitələri dəqiq müəyyən edilməlidir.

Fəslin ***"Xarici ölkələrin təcrübəsində şagird nailiyyətlərinin qiymətləndirilməsi modellərinin inkişaf tarixi"*** adlanan üçüncü paraqrafında problemin həlli məsələsinə xarici ölkə təcrübəsinə əsaslanaraq yanaşılmışdır. Ümumtəhsil müəssisələrinin müxtəlif təhsil səviyyələrində şagird nailiyyətinin qiymətləndirilməsinin forma, üsul və mexanizmlərinin öyrənilməsi məqsədilə müvafiq

ədəbiyyatlardan və internet resurslardan istifadə edilmiş, bir neçə xarici ölkənin bu sahədə təcrübəsi öyrənilmiş, toplanmış məlumatlar təhlil edilmiş, sistemləşdirilərək ümumiləşdirilmişdir.

Azərbaycan da daxil olmaqla 9 dünya ölkəsinin – Böyük Britaniya, ABŞ, Finlandiya, Sinqapur, Yaponiya, Türkiyə, Rusiya və Ukrayna məktəblərində istifadə olunan şagird nailiyyətlərinin qiymətləndirilməsi təcrübəsinin öyrənilməsi belə qənaətə gəlməyə imkan verir ki, qiymətləndirmənin ədalətli, şəffaf və obyektiv keçirilməsinin təmin olunması üçün hər bir ölkədə fərqli qiymətləndirmə modellərindən istifadə olunur.

Müəyyənləşdirilmişdir ki, hər bir ölkənin məktəblərində istifadə etdiyi şagird nailiyyətlərinin qiymətləndirməsi modeli o ölkənin təhsil siyasətinə əsasən həyata keçirilir və qiymətləndirmənin nəticələrindən təhsilin inkişafı üçün istifadə olunur.

I fəslin ***"Tədqiq olunan problemlə bağlı məktəb təcrübəsinin öyrənilməsi"*** adlanan dördüncü paraqrafında məktəb təcrübəsi araşdırılmış, təhlillər aparılmışdır.

Son illərdə təhsildə keyfiyyətin təmin edilməsi dövlətin təhsil siyasətinin mühüm məqsədlərindən biridir. Bu məqsədlə müasir infrastruktura malik olan təhsil müəssisələrinin, yüksək səviyyəli hazırlıqlı müəllimlərin, şagirdyönümlü təlim-tədrisin və şagird nailiyyətlərinin obyektiv və qərəzsiz qiymətləndirilməsi sisteminin tətbiqi çox mühüm şərtdir.

Məhz bu problem apardığımız tədqiqatın mühüm məqsədlərindən biri olduğu üçün biz öncə müxtəlif tipli ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin real vəziyyətini öyrənmək məqsədi ilə anket sorğusu tərtib etdik. Anket sorğusuna say baxımından 12 sual daxil etdik. Bu suallardan 7 sualda qapalı, 5 sualda isə açıq cavablar idi.

Anket sorğusunda paytaxtın Nərimanov, Xətai, Nizami, Səbail və Sabunçu rayonlarının, eyni zamanda Şirvan şəhərinin, Hacıqabul və Ağdam rayonlarının ümumtəhsil məktəbləri əhatə edilmişdi. Sorğuda Səbail rayonunda fəaliyyət göstərən 7, 203, 163, Nərimanov rayonundakı 39, 29, Nizami rayonu ərazisindəki 214 və digər adlarını qeyd etdiyimiz şəhər məktəblərinin pedaqoji heyəti ilə yanaşı,

Təzəkənd kənd tam orta məktəbinin pedaqoji işçilərindən 310 nəfər təhsilverən iştirak etmişdir.

Təhsilverənlər summativ qiymətləndirmənin apararkən və ona aid olacaq qiymətləndirmə vasitələrinin tərtib edərkən çətinliklərlə üzləşirlər.

Təhsilverənlər summativ qiymətləndirmənin yekun nəticələrindən fəaliyyətinin idarəedilməsi, stimullaşdırma, şagirdlərdə təlim motivasiyasının yüksəldilməsi, özünü inkişaf və təkmilləşdirmə vasitəsi olaraq çox da önəm vermirlər.

Dissertasiyanın II fəsli **"Tədqiqatın praktik problemləri"** adlanır və özündə dörd paraqrafa ehtiva edir. ***"Summativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr"*** adlanan birinci paraqrafda qiymətləndirmə vasitələrinin tərtib edilmə metodikası barədə dəyərli fikir və mülahizələr söylənilmişdir.

Buradan da göründüyü kimi, summativ qiymətləndirmə aparılarkən onun məzmunu (nə qiymətləndirilməlidir?), məlumat toplama metodu (hansı qiymətləndirmə vasitələrindən istifadə ediləcək?) və qiymətləndirmənin nəticələrindən nə məqsəd üçün istifadə olunacağı aydın və dəqiq müəyyən edilməlidir.

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyası tərəfindən təsdiq olunmuş "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması" Qaydasında şagird nailiyyətlərinin summativ qiymətləndirməsi zamanı tapşırıqvermə üsulundan istifadə olunması xüsusi olaraq qeyd edilmişdir. Həmçinin "Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması" Qaydasının tətbiqinə dair Təhsil Nazirliyi tərəfindən hazırlanmış tövsiyələrdə summativ qiymətləndirmədə bir çox metod və üsullardan – inşa, test, esse, referat, imla, təqdimat və layihədən istifadə olunması qeyd olunur .

Dünyanın inkişaf etmiş ölkələrinin (Amerika, İngiltərə, Yaponiya, Hollandiya, Avstraliya və s.) məktəb təcrübəsində şagird nailiyyətlərinin qiymətləndirilməsində test texnologiyalarının tətbiqi geniş şəkildə yayılmışdır. XX əsrin 90-cı illərindən başlayaraq ölkəmizdə də şagird nailiyyətlərinin qiymətləndirilməsində test üsulunda istifadənin hüdudları genişlənir, peşəkarcasına tətbiq olunur.

Müasir dövrdə şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsində test üsulundan istifadə zəruri pedaqoji tələbdir. Bu gün məktəblərdə şagird nailiyyətlərinin summativ qiymətləndirilməsində test tapşırıqlarından istifadəyə geniş yer verilir. İKT-nin təşəkkül tapdığı XXI əsrdə şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi üçün test ən əlverişli vasitədir. Çünki qısa bir zamanda daha çox şagirdin, daha çox fəndən bilik və bacarığını qiymətləndirmək mümkün olur. Eyni zamanda bu qiymətləndirmənin nəticələri əsasında daha tez bir zamanda şagirdlərin təlim nailiyyəti barədə kifayət qədər statistik məlumat toplamaq, onu riyazi emal etmək və obyektiv nəticələr çıxarmaq mümkün olur.

Müəllimlər şagirdlərin zəif tərəflərini müəyyən etməklə, özlərinin təlim prosesində buraxdıqları səhvlər üzərində məqsədyönlü iş aparırlar. Şagirdlərin təlim nailiyyətlərindəki boşluqları aradan qaldırmaq üçün gələcəkdə hansı məsələlərin tədrisinə daha çox önəm verməli olduqlarını müəyyənləşdirməyə imkan yaradırlar.

"Summativ qiymətləndirmənin təşkili metodikası" adlanan ikinci paraqrafda summativ qiymətləndirmənin aparılacağı otaqlar əvvəlcədən hazırlanmalıdır. Tövsiyə edilir ki, mühit şagirdlərə tanış olsun. Bu, adətən şagirdlərin dərs keçdiyi sinif otağı olmalıdır. Otaqların hazırlanması zamanı aşağıdakıları nəzərə almaq lazımdır:

• şagirdlərin sərbəst, səs-küysüz işləmələrinə şərait yaradılmalıdır.

• partaların arasındakı məsafə müəllimə və müşahidəçilərə istənilən şagirdə sərbəst yaxınlaşmağa imkan verməlidir.

• imtahana dair təlimatın göstərildiyi yazı lövhəsi şagirdlərin gözü önündə olmalıdır.

• sinif otağının divarlarından asılmış tapşırıqların icrası zamanı şagirdlərə kömək edə biləcək, informasiya xarakterli materialların, plakatların üzərini örtmək və ya onları götürmək lazımdır.

Müəllim summativ qiymətləndirmənin nəticələrindən şagirdlərin təhsil proqramının (kurikulumun) məzmununu nə dərəcədə effektiv mənimsədiklərini və hansı bacarıqları əldə etdiklərini təhlil etmək üçün istifadə edə bilər. Summativ qiymətləndirmənin nəticələri müəllimlərə gələcəkdə təhsil prosesinin planlaşdırılmasında da kömək edə bilər.

II fəslin ***"Summativ qiymətləndirmə vasitələrinin hazırlanma-***

***sına verilən didaktik tələblər"*** adlanan üçüncü paraqrafında mövzu daha dərindən işlənmiş, tədqiqat istiqaməti genişləndirilmişdir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsinə verilən tələblər barədə tədqiqatçı alimlər tərəfindən pedaqoji mətbuatda müxtəlif mülahizələr irəli sürülmüşdür. Alimlərin fikrincə, qiymətləndirmənin vahid tələblər əsasında təşkili şagirdin əldə etdiyi bilik və bacarıqların obyektiv və şəffaf ölçülməsinə xidmət edir.

Şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi o zaman səmərəli nəticələr verir ki, müəllim təlim və qiymətləndirmə fəaliyyətini planlaşdırarkən onlardan qarşılıqlı istifadəni düşünür. Çünki müəllim qiymətləndirmənin nəticələrinə əsasən şagirdləri hədəflərə nail olmaları ilə bağlı məlumatlandırmaqla kifayətlənməməli, həm də onları qarşıya qoyulmuş hədəflərə nail olmaları üçün istiqamətləndirməlidir.

Aparılmış araşdırmalar, təhlillər nəticəsində müəyyənləşdirilmişdir ki, summativ qiymətləndirmə vasitələri hazırlanarkən aşağıdakı didaktik tələblərin nəzərə alınması mühüm əhəmiyyət kəsb edir:

- fənninin xarakterik xüsusiyyətlərinin, məqsəd və vəzifələrinin nəzərə alınması;
- sual və tapşırıqların reallaşdırılmış standart və ya standartlar qrupunda ifadə olunmuş məzmunun mənimsənilmə səviyyəsini müəyyən etməyə imkan verməsi;
- məntiqi, tənqidi və yaradıcı təfəkkürü ölçməyə imkan verməsi;
- nəzəri və praktik bilik və bacarıqlarının inkişaf səviyyəsini ölçməyə xidmət etməsi;
- mənimsəmənin 4 çətinlik səviyyəsinin (20%-30%-30%-20%) nəzərə alınması;
- sual və tapşırıqların şərtinin aydın və sadə dildə yazılması;
- şagirdlərin yaş səviyyəsi;
- qiymətləndirmə üçün nəzərdə tutulan vaxtın optimallığı;
- sual və tapşırıqların çətinlik dərəcəsi.

Fəslin dördüncü paraqrafı ***"Pedaqoji eksperimentin təşkili və nəticələrinin təhlili"*** adlanır. Bu paraqrafın birinci hissəsində *"Öyrədici eksperimentin təşkili və nəticələrinin təhlili"*ndən danışılır. Eksperiment 2016-2025-ci illərdə Bakı şəhərinin 7, 36, 39, 86, 95,

163, 203, 214, 310 nömrəli, Şirvan şəhərinin 10, 11, 16, 20 nömrəli, Ağdam rayonunun 81 nömrəli, Təzəkənd kənd tam orta, Hacıqabul rayonunun 1 və 5 nömrəli məktəblərində təşkil olunmuşdur.

Tədqiqatın məqsədinə müvafiq olaraq ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin səmərəli təşkili üçün elmi, pedaqoji, psixoloji və metodoloji cəhətdən əsaslandırılmış şəkildə necə həyata keçirilməsi araşdırılmışdır. Bu zaman qarşıya aşağıdakı məqsədlər qoyulmuşdur:

- müəllimlər tərəfindən summativ qiymətləndirmənin üsul və vasitələrindən məqsədəuyğun istifadəni müəyyənləşdirmək;
- şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi zamanı müəllimlərin qarşılaşdıqları çətinliklər və onları doğuran səbəbləri aşkar etmək;
- şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi zamanı müəllimlərin qarşılaşdıqları çətinliklərin aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələr vermək.

Pedaqoji eksperiment üç mərhələdə - müəyyənedici, öyrədici və yoxlayıcı keçirilmişdir. Ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin müəllimlər tərəfindən necə təşkil olunduğunu öyrənmək məqsədilə kütləvi sorğudan, müşahidə və söhbətlərdən, təhlil və tərkibdən bəhrələndik. Müəyyənedici eksperimentin 2016/2017 və 2017/2018-ci tədris illərini əhatə edən birinci mərhələsində aşağıdakı istiqamətlərdə iş aparılmışdır:

- qarşıya qoyulmuş problemin işlənilməsinə nəzəri əsas ola biləcək ədəbiyyatın oxunması və təhlili;
- respublikamızın bir sıra şəhər və kənd məktəblərində müəllimlərin summativ qiymətləndirmə barədə məlumatlılıq səviyyəsinin müəyyənləşdirilməsi;
- şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi sahəsində respublikamızın bir sıra şəhər və kənd məktəblərində müəllimlərin iş təcrübəsinin öyrənilməsi.

Müəllimlərin tədqiq olunan problemlə bağlı məlumatlılıq səviyyəsinin öyrənilməsi məqsədilə 16 məktəbdə 310 nəfər müəllimlə anket sorğusu keçirilmişdir.

Pedaqoji eksperimentin müəyyənedici mərhələsi dissertasiya- da nəzərdən keçirdiyimiz problem üzrə mövcud vəziyyət barədə

aydın təsəvvür yaratdı. Müsbət və qüsurlu hallar müəyyən edildi. Pedaqoji eksperimenti aparmaq üçün seçilən məktəblərdə eksperimental və kontrol siniflər müəyyən edildi. Eksperimentə cəlb olunmuş müəllimlərin (istər eksperimental, istərsə də kontrol), şagirdlərin səviyyələrinin bərabər olması təmin edildi. Müəllimlərin pedaqoji stajında əsaslı fərqin olmamasına da fikir verildi.

Pedaqoji eksperimentin aparıldığı Bakı şəhərinin 163 və 310 nömrəli, Ağdam rayonunun 81 nömrəli şəhər tam orta məktəblərində xüsusi olaraq eksperimental və kontrol siniflərdə dərs deyən 18 nəfər müəllimin (onlardan 9 nəfəri eksperimental, 9 nəfəri isə kontrol siniflərdə dərs deyən müəllimlər) summativ qiymətləndirmə sahəsindəki məlumatlılıq səviyyəsini müəyyən etmək üçün aşağıdakı suallar ilə müraciət edilmişdir:

Summativ qiymətləndirmələri hansı sənədə əsasən aparırsınız?

1. Summativ qiymətləndirmə zamanı hansı üsullarından daha çox istifadə edirsiniz?

2. Summativ qiymətləndirmə vasitələrinin tərtibinə qoyulan əsas tələblər hansılardır?

3. KSQ hansı müddətə aparılır?

4. BSQ vasitələri kim tərəfindən hazırlanır?

Sorğunun nəticələri ilə cədvəl 1-də tanış olmaq mümkündür.

**Cədvəl 1.**

**Eksperimental və kontrol sinifdə dərs deyən müəllimlərlə keçirilmiş ilkin sorğunun nəticələri**

| Suallar | Eksperimental sinifdə dərs deyən müəllimlər | | | | Kontrol sinifdə dərs deyən müəllimlər | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Düz cavab | | Səhv cavab | | Düz cavab | | Səhv cavab | |
| | Nəfər | % | Nəfər | % | Nəfər | % | Nəfər | % |
| 1-ci sual | 2 | 22 | 7 | 78 | 1 | 11 | 8 | 89 |
| 2-ci sual | 9 | 100 | - | - | 8 | 89 | 1 | 11 |
| 3-cü sual | 7 | 78 | 2 | 22 | 8 | 89 | 1 | 11 |
| 4-cü sual | 4 | 44 | 5 | 56 | 4 | 44 | 5 | 56 |
| 5-ci sual | 6 | 67 | 3 | 33 | 7 | 78 | 2 | 22 |
| 6-cı sual | 7 | 78 | 2 | 22 | 8 | 89 | 1 | 11 |
| 7-ci sual | 8 | 89 | 1 | 11 | 9 | 100 | - | - |

**Diaqram 1.**




Diaqram 1-də eksperimental və kontrol siniflərdə dərs deyən müəllimlərin summativ qiymətləndirmə barədə məlumatlılıq səviyyəsini müəyyən etmək üçün verilmiş suallara düzgün cavab göstəriciləri əks olunmuşdur. Diaqramdan da göründüyü kimi həm eksperimental, həm də kontrol sinifdə dərs deyən müəllimlərin summativ qiymətləndirmə barədə məlumatlılıq səviyyəsi əsasən uyğunluq təşkil etmişdir.

Kontrol siniflərində işləyən müəllimlərə tərəfimizdən heç bir elmi-metodik göstəriş verilməmişdir. Onlar ənənəvi iş metodları ilə işləyirdilər. Eksperimental siniflərdə dərs deyən müəllimlərin bilik və bacarıqlarındakı boşluqları aradan qaldırmaq, ehtiyaclarını qarşılamaq üçün təşkil edilmiş söhbət və öyrədici seminarlarda aşağıdakı mövzular müzakirə olunmuşdur:

- Summativ qiymətləndirmənin mahiyyəti və məzmunu;
- Summativ qiymətləndirmədə istifadə olunan üsul və vasitələr;
- Summativ qiymətləndirmə vasitələrinin hazırlanmasına verilən tələblər;
- Summativ qiymətləndirmə zamanı qaydalara əməl olunması;
- Summativ qiymətləndirmənin nəticələrinin emalı və onlardan istifadə;
- Summativ qiymətləndirmədə edilən dəyişikliklərin məzmunu.

Aparılmış araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin summativ qiymətlən-

dirilməsində əsasən şagirdlərin məlumatlılıq səviyyəsinin ölçülməsinə xidmət edən sual və tapşırıqlardan istifadə olunur. Səbəb-nəticə, uyğunluq, ardıcıllıq, münasibət və s. test modellərindən, digər qiymətləndirmə vasitələrindən demək olar ki, istifadə olunmur. Çünki müzakirələr zamanı müəllimlər hazır qiymətləndirmə vasitələrindən istifadə etdiklərini etiraf edirlər. Bu çox sadə yoldur və müəllimdən heç bir yaradıcılıq və əlavə iş görmək tələb etmir. Bunun da əsas səbəbi əksər müəllimlər bu tip qiymətləndirmə vasitələrini hazırlamaq üçün kifayət qədər vaxt tələb olunması əsas gətirirlər.

Dördüncü paraqrafın ikinci hissəsində *"Yoxlayıcı eksperimentin nəticələrinin təhlili"*ndən danışılır.

Tədqiqat göstərmişdir ki, eksperimental siniflərdə dərs deyən müəllimlərlə aparılmış məqsədyönlü, fasiləsiz, mütəşəkkil və sistemli işlər bu siniflərdə təhsil alan şagirdlərin təlim nailiyyətlərinin artmasına, onların müstəqil və yaradıcı təfəkkürünün inkişafına təkan vermişdir.

Dəyişikliyi izləmək mümkün olsun deyə, pedaqoji eksperimentin aparıldığı Bakı şəhərinin 163 və 310 nömrəli, Ağdam rayonunun 81 nömrəli şəhər tam orta məktəblərində xüsusi olaraq eksperimental və kontrol siniflərdə dərs deyən öyrədici eksperimentdə keçirilmiş sorğuda iştirak edən 18 nəfər müəllimlə təkrar sorğu keçirilmişdir. Onlardan 9 nəfəri eksperimental, 9 nəfəri isə kontrol siniflərdə dərs deyən müəllimlər idi.

**Cədvəl 2.**

**Eksperimental və kontrol sinifdə dərs deyən müəllimlərlə keçirilmiş təkrar sorğunun nəticələri**

| Suallar | Eksperimental sinifdə dərs deyən müəllimlər | | | | Kontrol sinifdə dərs deyən müəllimlər | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | Düz cavab | | Səhv cavab | | Düz cavab | | Səhv cavab | |
| | Nəfər | % | Nəfər | % | Nəfər | % | Nəfər | % |
| 1-ci sual | 9 | 100 | - | - | 1 | 11 | 8 | 89 |
| 2-ci sual | 9 | 100 | - | - | 9 | 100 | - | - |
| 3-cü sual | 9 | 100 | - | - | 6 | 67 | 3 | 33 |
| 4-cü sual | 9 | 100 | - | - | 4 | 44 | 5 | 56 |
| 5-ci sual | 9 | 100 | - | - | 5 | 56 | 4 | 44 |
| 6-cı sual | 9 | 100 | - | - | 8 | 89 | 1 | 11 |
| 7-ci sual | 9 | 100 | - | - | 7 | 78 | 2 | 22 |

**Diaqram 2.**

**Eksperimental və kontrol siniflərdə dərs deyən müəllimlərlə keçirilmiş təkrar sorğunun nəticələri**




Diaqram 2-dən də göründüyü kimi, eksperimental siniflərdə dərs deyən müəllimlərlə aparılmış məqsədyönlü işlərdən sonra keçirilmiş təkrar sorğunun nəticələrində nəzərə çarpacaq dəyişikliklər olmuşdur. Belə ki, eksperimental sinifdə dərs deyən müəllimlər sorğunun bütün suallarını düzgün cavablandırmışlar. Kontrol sinifdə dərs deyən müəllimlər isə ilkin sorğunun nəticələri ilə müqayisədə yalnız sorğunun ikinci sualına yekdilliklə düz cavab vermişlər. Sorğu iştirakçılarının 8 nəfəri (89%) birinci suala, 3 nəfəri (33%) üçüncü suala, 5 nəfəri (56%) dördüncü suala, 4 nəfəri (44%) beşinci suala, 1 nəfəri (11%) altıncı suala, 2 nəfəri isə (22%) suala səhv cavab vermişdir.

Pedaqoji eksperimentin müqayisəli təhlili zamanı əldə olunan materiallar bir daha tədqiq olunan mövzunun aktuallığının və zəruriliyinin praktik olaraq sübuta yetirildiyini göstərmişdir.

Aparılan eksperimental iş, anket sorğusu, və müsahibələr göstərmişdir ki, şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi müəllimlər tərəfindən düzgün tətbiq edilərsə, məktəbdə fənlərin tədrisində müəllimlər bütün şagirdlərə bilikləri yaxşı mənimsədə

bilir, o cümlədən şagirdlər tədris olunan kursu tam və hərtərəfli öyrənmək imkanı əldə edilir.

Tədqiqat nəticəsində müəyyənləşmişdir ki, şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin düzgün təşkili və keçirilməsi şagirdlərin bilik, bacarıq və vərdişlərinin səviyyəsini yüksəlməsinə, onların idrak fəaliyyətinin yaxşılaşmasına, müəllimlərin dərs vaxtından səmərəli istifadə etməsinə imkan verir.

Tədqiqatla bağlı bir sıra **nəticələr** alınmışdır. Onlardan bəzilərini qeyd edək:

Ümumtəhsil məktəblərində şagirdlərin təlim nailiyyətlərinin summativ qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsinə olan ehtiyac nəzərə alınaraq, summativ məktəbdaxili qiymətləndirilməsinin mahiyyəti və məzmunu araşdırılmış, şagirdlərin təlim nailiyyətlərinin summativ qiymətləndirilməsinə qoyulan tələblər, təlim prosesinin ayrı-ayrı mərhələlərində summativ qiymətləndirmənin müxtəlif növlərindən istifadənin məqsəd və vəzifələrinin elmi, pedaqoji və metodik əsasları işlənilmişdir.

Summativ qiymətləndirmə tədris prosesinin prioritetlərini və metodlarını strukturlaşdırmağa, şagirdlərin nəyi və necə öyrəndiklərini müəyyən etməyə imkan verən bir vasitədir. Bu əsasda müəyyən vaxtlarda şagirdlərin inkişafını ümumiləşdirən summativ qiymətləndirmə nailiyyətlərin sinif və məktəb kontekstlərində öyrənməsi haqqında hesabat verməyi nəzərdə tutur. Summativ qiymətləndirmə təhsil müəssisələrində obyektiv, etibarlı, şəffaf və istifadəyə yararlı qiymətləndirilmənin tərtib olunması əsasında şagirdlərin təlim nailiyyətlərinin vəziyyətinin, mövcud problemlərin elmi, pedaqoji və metodik əsaslarının öyrənilməsi məqsədilə aparılır. Bu əsasda təqdim olunan cari dissertasiya işində tədqiqat metodlarından (anket sorğusu, eksperiment, müşahidə) əldə olunan məlumatlar əsasında aşağıdakı nəticələrə gəlinmişdir.

1. Tədqiqatdan aydın olur ki, summativ qiymətləndirmə şagird nailiyyətlərini, onların mənimsədiyi bilik və bacarıqları barədə etibarlı məlumat almağa şərait yaradır. Bu da öz növbəsində şagirdlərə səhvlərinə bələd olmağa, onlarda öyrənmə motivasiyasının artmasına və lazımi dəstəklə təmin olunmasına kömək edir. Eyni zamanda, müəllimlərə tədris prosesində olan boşluqlardan xəbər

tutmaq, onların həlli istiqamətində müvafiq işlər görmək, məktəb rəhbərliyinə isə məktəbin idarə olunmasında qarşıya çıxan nöqsanların aradan qaldırılmasında müvafiq tədbirlər görmək üçün əsas vasitədir.

2. Summativ qiymətləndirmənin təhsildə mühüm roluna baxmayaraq, şagird nailiyyətlərini yaxşılaşdıran vacib amil kifayət qədər tədqiq edilməmişdir. Buna səbəb isə summativ qiymətləndirmənin tədrisin başa çatmasından sonra həyata keçirilməsidir. Belə olduqda təlimdən geri qalmış şagirdləri aşkar etmək və onların təlim çətinliklərini vaxtında aradan qaldırmaqda müəllimləri istiqamətləndirmək üçün diaqnostik vasitə kimi əhəmiyyəti azalır.

Bu çatışmazlıqlara baxmayaraq, yekun qiymətləndirmə təhsildə əsas rol oynayır, sistemdə olan nöqsanları aradan qaldırır. O, müəllimlərə konkret fənnin tədrisinin səmərəliliyinin müəyyən edilməsi, mühüm qərarların qəbul edilməsi və ümumtəhsil tədbirlərinin səmərəliliyinin qiymətləndirilməsi üçün dəyərli məlumatlar verir.

3. Aparılmış tədqiqatın nəticələrinə əsasən summativ qiymətləndirmənin müəllimlərə və məktəb rəhbərliyinə şagirdlərin təlim prosesində qarşılaşdıqları çətinliklər, bu çətinliklərin onların bilik, bacarıqlarına bir sözlə təlim nailiyyətlərinə təsiri, təlim materiallarının şagirdlərin anlama səviyyəsi ilə vəhdət təşkil edib etməməsi, pedaqoji texnologiyaların, təlim strategiyalarının mövcudluğu və əlçatanlığı haqqında ətraflı məlumat əldə etməyə imkan yaradır.

4. Şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinə dair həm yerli, həm də xarici mənbələr (pedaqoji, psixoloji və metodik ədəbiyyatlar) nəzərdən keçirilmişdir. Bu mənbələrdə əksini tapmış fikirlər dəyərləndirildikdə təlim prosesinin keyfiyyətinin, şagirdlərin cari materialı mənimsəmə səviyyəsinin, əldə edilən bilik və vərdişlərdən təcrübədə istifadə bacarığının müəyyənləşdirilməsində summativ qiymətləndirmə mühüm vasitədir. O cümlədən nəzərdən keçirilmiş mənbələr bizə summativ qiymətlənirmənin planlı və məqsədyönlü bir fəaliyyət olduğunu deməyə imkan verir. Bu əsasda nəzərdən keçirilən xarici ölkə təcrübələri qiymətləndirmənin nəzərdə tutulmuş məqsədə uyğun şəkildə tərtib edilməsi, onların dayanıqlığını, etibarlılığını, şəffaflığını və istifadəyə yararlılığını təmin etməyin vacibliyini vurğulayır. Belə ki, qiymətləndirmənin dayanıqlılığı qiymətləndir-

məyə əlavə edilən nəticələrin uyğunluğu, qiymətləndirmə əsaslı istifadə və nəticələr ilə əlaqədardır. Yüksək etibarlı qiymətləndirmə şagirdlərin akademik göstəricilərinin müvafiq aspektlərinin qiymətləndirilməsini təmin edir. Qiymətləndirmədə etibarlılıq qiymətləndirmənin düzgün ölçülməsində əhəmiyyətlidir.

5. Tədqiqatdan aydın olur ki, təlim prosesinin keyfiyyəti şagird nailiyyətlərinin summativ qiymətləndirməsindən əldə olunan nəticələrlə dəyərləndirilir. Bu əsasda dövlətin təhsil siyasətinin qarşısında duran əsas məqsəd tədrisin keyfiyyətinin artırılması, şagird nailiyyətinin yüksəldilməsi üçün səmərəli qiymətləndirmə meyarlarının tətbiq olunmasına nail olmaqdır. Bu səbəbdən tədqiqatda istifadə olunan metodlardan əldə olunmuş məlumatlar vəziyyətin daha aydın başa düşülməsinə şərait yaradacağına inanılır.

6. Aparılmış müşahidələr nəticəsində müəyyən olunmuşdur ki, ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsində əsasən hafizə testlərindən istifadə olunur. Bununla yanaşı, səbəb-nəticə, uyğunluq, ardıcıllıq, münasibət və s. test modellərindən də istifadə olunmuşdur. Müəllim əsaslı qiymətləndirmələrin etibarlılığı bacarıq səviyyələrinin ətraflı təsviri ilə balların hesablanması və yüksək performans nümunələri təqdim edən qiymətləndirmə təlimatlarından istifadə etməklə artırıla bilər. Müəllimlər əldə ediləcək məqsədlərə aydınlıq gətirdikdə və xüsusən də meyarların hazırlanmasında iştirak etdikdə qiymətləndirmə meyarlarını daha dəqiq tətbiq edə bilərlər.

7. Summativ qiymətləndirmə vasitələri hazırlanarkən fənnin xarakterik xüsusiyyətləri, məqsəd və vəzifələri nəzərə alınmalı, qavrayışın çətinlik səviyyəsinə, şagirdlərin yaş səviyyəsinə uyğun olmalı, sual və cavablar aydın və sadə dildə tərtib olunmalı, sual və tapşırıqların çətinlik dərəcəsi kimi didaktik tələblərin nəzərə alınması zəruridir.

8. Şagird nailiyyətlərinin summativ qiymələndirilməsi zamanı müəllimlərin qarşılaşdıqları çətinliklər, onları doğuran səbəblər, üsul və vasitələrdən məqsədyönlü istifadəni öyrənməyə imkan verən müəyyənləşdirici, öyrədici və yoxlayıcı pedaqoji exsperiment təşkil olunmuşdur. Aparılan eksperimentin müqayisəli təhlili dissertasiya işində təklif olunan eksperimentin özünü doğrultduğunu söyləməyə imkan verir.

Belə ki, təklif olunmuş metodikanın şagird nailiyyətini yüksəltdiyi eksperimentin təhlili nəticəsində sübuta yetirilmişdir. Pedaqoji eksperimentin ilkin və yekun dəyərləndirilməsi nəticəsində şagird nailiyyətinin summativ qiymətlədirməsinin düzgün təşkili məktəbdə təlimin keyfiyyətini yüksəltdiyi aydın olmuşdur. Ekspriment və nəzarət siniflərində müqayisəli təhlili göstərdi ki, eksperimentin tətbiq olunduğu siniflərdə şagirdlər nəzəri və praktiki biliklərin tətbiqində daha fəal və müstəqildirlər. Eksperimentin nəticəsi göstərir ki, summativ qiymətləndirmə düzgün təşkil edilərək tətbiq edilsə, şagirdlər bilik və bacarıqları daha yaxşı mənimsəyə bilər. Eyni zamanda kursu və materialı hərtərəfli şəkildə mənimsəyə biləcəklər. Tədqiqatda şagird nailiyyətlərinin qiymətləndirilməsinin yeni mexanizm əsasında aparılması müasir təhsilimizin uğuru kimi qiymətləndirilir.

Summativ qiymətləndirmə daha yüksək əhəmiyyət kəsb etdiyi üçün qiymətləndirmənin təlimatın məqsədlərinə və gözlənilən nəticələrinə uyğun olmasını təmin etmək xüsusilə vacibdir. Aparılan tədqiqatdan əldə olunan nəticələrin Azərbaycan Respublikasının təhsil sisteminə müsbət təsiri olacağına inanılır. Bu əsasda şagird nailiyyətlərinin summativ qiymətləndirilməsinin daha etibarlı, obyektiv və səmərəli təşkili üçün qeyd olunan **təkliflərin** nəzərə alınması zəruri hesab edilir.

1. Şagirdlər səy və nailiyyətlərinin artırması üçün həvəsləndirilə bilər. Summativ qiymətləndirmə ilə əlaqəli qiymətlər, transkriptlər və ya diplomlar qiymətləndirmənin uğurla yerinə yetirilməsi üçün mükafat kimi qəbul edilməlidir. Şagirdlərin özləri, onların valideynləri, məktəb daxilindəki digər şəxslər kimi bir sıra müxtəlif tərəflərə şagird performansı haqqında məlumat verilə bilər.

2. Rubriklər və ya spesifikasiyalar cədvəlindən istifadə edilə bilər. Təlimatçılar bir sıra qiymətlər üçün gözlənilən performans meyarlarını tərtib etmək üçün rubriklərdən istifadə edə bilərlər. Rubriklər ideal tapşırığın necə göründüyünü təsvir edəcək və dərs ilinin əvvəlində gözlənilən performansı "ümumiləşdirəcək", şagirdlərə trayektoriya və tamamlama hissi təqdim edə biləcək.

3. Aydın, effektiv suallar tərtib edilə bilər. Əgər yazı işləri üçün suallar tərtib edirsinizsə, müəllimlər sualların meyarlara cavab verməsini təmin edə bilməli, eyni zamanda şagirdlərə öz biliklərini

yaradıcı şəkildə ifadə etmək azadlığı verməli və onların mənanı necə dərk etdiklərini və ya mənimsədiklərini nəzərə almalıdırlar.

4. Hərtərəfli qiymətləndirilmə təşkil oluna bilər. Səmərəli summativ qiymətləndirmələr şagirdlərə kursun məzmununun məcmusunu nəzərdən keçirmək, geniş əlaqələr qurmaq, sintez edilmiş bacarıqları nümayiş etdirmək və kursun ideya və məzmununu idarə edən və ya tapan daha dərin anlayışları araşdırmağa imkanı verə bilər.

5. Parametrlərin aydınlaşdırılması nəzərə alına bilər. Yekun qiymətləndirməyə hazırlanarkən təlimatçılar parametrlərin yaxşı müəyyən edilməsini təmin edə bilər (qiymətləndirmənin uzunluğu, cavabın dərinliyi, vaxt və tarix, qiymətləndirmə standartları); qiymətləndirilən bilik kursun əhatə etdiyi məzmunla aydın şəkildə bağlı olmalı və çətinliyi olan şagirdlərə lazımi dəstək verilə bilər.

6. Alternativ olaraq kor qiymətləndirmə (Blind grading) nəzərdən keçirilə bilər. Təlimatçılar həqiqətən qərəzsiz summativ qiymətləndirmə təmin etmək istəyirlərsə, onlar müxtəlif kor qiymətləndirmə üsullarını da nəzərdən keçirə bilərlər. Bu üsulun tətbiqi zamanı şagird işinin nəzərdən keçirilməsi prosesindən əvvəl identifikatorlar silinir. Bu cür qiymətləndirmədən xəbərdar olan şagirdlərdə qiymətləndirmə ballarının düzgünlüyünə və obyektivliyinə inamı artıra bilər.

7. Ümumtəhsil fənləri üzrə məktəbdaxili qiymətləndirmənin aparılmasına dair təlimatın hazırlanması müəllimin qiymətləndirmə fəaliyyətindəki çətinliklərin aradan qaldırılmasına kömək edə bilər.

Tədqiqatın məzmunu, əsas elmi ideyaları və alınan nəticələri iddiaçının **nəşr etdirdiyi** aşağıdakı əsərlərində öz əksini tapmışdır:


1. Qiymətləndirmənin təkmilləşdirilməsi təhsil prosesinin mühüm tərkib hissəsi kimi // "Müstəqillik illərində Azərbaycanın sosial-iqtisadi, siyasi və mədəni inkişafı" mövzusunda respublika elmi konfransının materialları // – Sumqayıt: – 13- 14 oktyabr, – 2016, – s.226-227
2. Summativ qiymətləndirmənin mahiyyəti və məzmunu // – Bakı: Azərbaycan məktəbi, – 2017. № 1, – s.90-93

3. Şagird nailiyyətlərinin summativ qiymətləndirilməsi // – Bakı: Pedaqogika, elmi-nəzəri-metodik jurnal, – 2017. № 3, – s.49-59
4. Şagird nailiyyətlərinin qiymətləndirilməsi beynəlxalq təcrübədə // – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2017. № 4, – s. 225-229
5. Summativ qiymətləndirmə: məktəb təcrübəsində // – Bakı: ARTİ-nin Elmi əsərləri, – 2018. № 6, – s.294-301
6. Методика организации суммативного оценивании // – Одеса: Ричорноморський науково-дослідний інститут економіки та інновацій інноваційна педагогіка. Науковий журнал, – Выпуск 11, – 2019. Том 1, – s.49-52
7. Проблемы оценивания успеваемости учащихся в современной школе // Научный журнал, ИЗВЕСТИЯ Балтийской государственной академии рыбопромыслового флота, – 2020. № 2 (52), – s.211-215
8. Роль методов оценивания в оценке успеваемости учащихся // LVIII Международной научно-практической конференции «WORLD SCIENCE: PROBLEMS AND INNOVATIONS», – Пенза: – 30 октября, – 2021, – s.152-154
9. Methodology of summative assessment // MODERN ASPECTS OF MODERNIZATION OF SCIENCE: STATUS, PROBLEMS, DEVELOPMENT TRENDS Materials of the 22th International Scientific and Practical Conference, Ljubljana (Slovenia) remotely: – 3 July, – 2022, – p. 285-288



Dissertasiyanın müdafiəsi __24 oktyabr__ 2025-ci il tarixdə saat 14^00^da Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.49 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1096, Bakı şəhəri, Məhsəti Gəncəvi küçəsi 41 (Neftçilər kampusu)

Dissertasiya ilə Xəzər Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası (https://www.khazar.org) Xəzər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat __9__ __sentyabr__ 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.06.2025

Kağızın formatı: A5

Həcm: 41431 işarə

Tiraj: 100